# *AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU - 90*

UOT 37.0

***Ənvər Məhəmməd oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor*
*müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

## TƏHSİL İNSTİTUTU VƏ AZƏRBAYCAN PEDAQOJİ FİKRİNİN İNKİŞAFINA ONUN TƏSİRİ

***Анвар Магомед оглы Аббасов***
*заместитель директора Института Образования Азербайджанской Республики*
*доктор философии по педагогике, доцент, Заслуженный учитель*

## ИНСТИТУТ ОБРАЗОВАНИЯ И ЕГО ВЛИЯНИЕ НА РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

***Anvar Muhammad Abbasov***
*deputy director of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of philosophy in pedagogy, associate professor, Honored teacher*

## INSTİTUTE OF EDUCATİON AND İTS INFLUENCE ON THE DEVELOPMENT OF PEDAGOGİCAL THOUGHT İN AZERBAİJAN

**Xülasə.** Məqalədə Təhsil İnstitutunun yaranması zərurəti əsaslandırılır və onun bir tədqiqat müəssisəsi kimi formalaşması tarixinə dair araşdırılmaların nəticələri ümumiləşdirilir. Eyni zamanda institutun keçdiyi tarixi inkişaf yolu nəzərdən keçirilir, Azərbaycan pedaqoji fikir tarixinə verdiyi töhfələrdən bəhs olunur. Standart və kurikulumların hazırlanması sahəsindəki fəaliyyətlər təhlil edilir. Həmçinin müasir dövrün tələbinə uyğun olaraq institutun yeniləşməsi, layihə əsaslı tədqiqatlar sahəsində uğurlar qazanması, Milli Prioritetlərlə bağlı vəzifələrin müəyyənləşdirilməsi barədə fikirlər təqdim olunur.

***Açar sözlər:*** *Təhsil İnstitutu, sistemli pedaqoji tədqiqatlar, tədqiqatçılıq fəaliyyət, kütləvi eksperimentlər, funksiyaların genişlənməsi, məsuliyyətin artması, müasirlik müstəvisində.*

**Резюме.** В статье обосновывается необходимость создания Института Образования и обобщаются результаты исследований по истории его становления как научно-исследовательского учреждения. Проанализирована деятельность в области разработки стандартов и учебных программ. Есть также мнения о модернизации института в соответствии с требованиями современности, его успехах в области проектных исследований, определении его задач, связанных с национальными приоритетами.

***Ключевые слова:*** *институт щбразования, систематические педагогические исследования, исследовательская деятельность, массовые эксперименты, расширение функций, повышение ответственности, современность.*

**Summary.** The article substantiates the need to create an educational institution and summarizes the results of research on the history of its formation as a research institution. The activity in the development of standards and curricula is analyzed. There are also opinions about the modernization of the institute in accordance with the requirements of modernity, its success in the field of project research, the definition of its tasks related to national priorities.

***Keywords:*** *Institute of Education, systematic pedagogical research, research activities, mass experiments, expansion of functions, increased responsibility, modernity.*

**Təhsil İnstitutunun təşəkkülü və ya ilk illər**

Dünya sivilizasiyası tarixində qədim elmi, mədəniyyəti ilə fərqlənən Azərbaycan həm də özünəməxsus təhsil ənənələri ilə digər ölkələrdən seçilir. Şərq, İslam ənənələri ilə zəngin olan və dünya təhsil mədəniyyətinin bir incisi kimi formalaşan Azərbaycan təhsilinin klassik inteqrativ məzmunu, dəyərlərə söykənən tədris modelləri maraqlı öyrənmə mexanizmləri kimi bu günə qədər gəlib çatmışdır. Zaman bu tədris, təlim modellərini sınaqdan çıxarsa da, onun xüsusi tədqiqat obyektinə çevrilməsinə, bir sistem halında öyrənilməsinə, yeniləşdirilməsinə yalnız ötən əsrin əvvəllərindən başlanılmışdır. XX əsrin 20-ci illərinin əvvəllərində Bakı Dövlət Universiteti, daha sonra Azərbaycan Dövlət Pedaqoji Universiteti yaradılmışdır. Bu dövrdə respublikamızda aparılan quruculuq işlərinin məntiqi davamı kimi pedaqoji elmlərin, məktəb və maarifin nəzəri və praktik məsələlərini, eləcə də inkişaf istiqamətlərini öyrənən pedaqoji elmlərin formalaşması ehtiyacı meydana çıxmışdır. Bu zərurətə uyğun olaraq Azərbaycan SSR Xalq Maarif Komissarlığının əmri əsasında 1931-ci il iyulun 01-dən Azərbaycan Xalq Maarif Komissarlığının Elmi-Tədqiqat Pedaqoji Kabineti və Bakı Xalq Maarif Şöbəsinin laboratoriyası əsasında indiki Azərbaycan Respublikasının Təhsil İnstitutunun bünövrəsi qoyulmuşdur. (1, s.6)

İnstitutun tarixinə səyahət etmiş olsaq, 1931-1934-cü illəri onun təşəkkül dövrü adlandıra bilərik. Çünki bu dövrdə ÜİK(b)P MK-nın "İbtidai və orta məktəb haqqında" 1931-ci il tarixli, "İbtidai və orta məktəblə tədris proqramları və rejim haqqında" 1932-ci il tarixli və "İbtidai və orta məktəblər üçün dərsliklər haqqında" 1933-cü il tarixli qərarları, ümumiyyətlə, məktəbin qurulmasını bir vəzifə olaraq qarşıya qoymaqla həmçinin orada müxtəlif aspektli pedaqoji, psixoloji araşdırmaların aparılmasını aktuallaşdırırdı. Eyni zamanda bu işlərin təşkilinə və aparılmasına rəvac verə bilən qurumların yaradılmasını şərtləndirirdi. Elə bu səbəbdən də institutun açılması barədə qərar qəbul edilmişdir. İnstitut ilk dəfə 10 elmi işçi, 6 laborantla fəaliyyətə başlamış, pedaloji məsləhət şöbəsindən ibarət olmuşdur. Sonralar onun əsasında üç şöbə (pedalogiya, pedaqogika, uşaq kommunist hərəkatı) yaradılmışdır. Pedalogiya şöbəsinin tərkibində psixologiya, pedalogiya, kino və uşaqlar (kino və teatr), məktəbəqədər tərbiyə, pedaqogika şöbəsinin nəzdində isə politexnizm, tədris kitabı və proqram qrupu, proqram-metodika qrupu, maarifin tarixi qrupu fəaliyyət göstərmişdir. İnstitutun ilk direktoru Surxay Hacıyev olmuşdur.(1, s.7-8)

1932-ci il 02 fevral tarixindən institutun aspiranturası yaradılmış və elmi-pedaqoji kadr hazırlığına başlanılmışdır. İnstitutun aspiranturasına ilk yeddi nəfər (Ə. Seyidov, M. Mehdizadə, M. Tahirli, Z. Axundova, Q. Hüseynov, M. Məcidov, A. Prunis) qəbul edilmişdir. Sonralar elmi-pedaqoji kadr hazırlığı institutda bir ənənəyə çevrilmişdir ki, bu gün mindən çox fəlsəfə və elmlər doktoru institutun yetirməsi kimi ölkəmizin müxtəlif təhsil müəssisələrində fəaliyyət göstərir. (1, s. 9)

1932-ci ildə institutun Naxçıvan filialı yaradılmış, bununla da pedaqoji araşdırmaların arealı genişləndirilmişdir. Artıq 1934-cü ildə regionlarda pedaloji-pedaqoji kabinetlər yaradılmağa başlamış və məktəbin metodik infrastrukturunun qurulmasını istiqamətləndirən belə bir qurumun formalaşdırılmasında institut yaxından iştirak etmişdir.(1, s.11)

1934-cü ildə İnstitutun Elmi Əsərləri nəşrə başlamışdır.(1, s.11) Bu, əslində, institutun həyatında mühüm hadisə idi. Pedaqoji araşdırmalar aparmaq, onun nəticələrini ümumiləşdirərək məktəbin, müəllimin diqqətinə çatdırmaq, həmçinin pedaqogika elminin müddəalarının zənginləşdirilməsində onlardan istifadə etmək, bütün bunlarla yanaşı, hökumətin məktəb haqqında qərarlarına istinad etmək, qabaqcıl müəllimlərin iş təcrübəsini öyrənib ümumiləşdirməklə yaymaq üçün bu Elmi əsərlərdən istifadə olunurdu. Elmi Əsərlər Ali Attestasiya Komissiyasının tanıdığı nüfuzlu məcmuə kimi bu gün də nəşr olunmaqdadır.

1935-ci ildə institutun Elmi Şurasının yaradılması da mühüm hadisə idi. (1, s.14) Çünki bu ali orqanın formalaşması ilə kollegial elmi idarəetmənin imkanları genişləndi və pedaqoji, psixoloji tədqiqatların keyfiyyətini yüksəltmək məqsədi ilə müzakirələrin keçirilməsi üçün şərait yarandı.

İnstitut 1933-34-cü illərdən etibarən öz tədqiqatçılıq fəaliyyətinə aşağıdakı məsələləri öyrənməklə başladı. Bu işdə həm yerli, həm də

başqa ölkələrdən gəlmiş tədqiqatçı-pedaqoqlar fəal iştirak etdilər.

1. Politexnik təhsil məsələləri. (B. Komarovski)
2. Türk (Azərbaycan) məktəblərində türk (Azərbaycan) dilinin tədrisi metodikasının əsas problemləri. (B. Çobanzadə)
3. Məktəbdə tarixin tədrisinin psixoloji əsasları. (A. Makavelski)
4. Fizika müəllimlərinin ixtisasının artırılmasının əsas vəzifələri. (prof. B. Komarovski)
5. Stabil proqramlarla əlaqədar riyaziyyat müəllimlərinin ixtisasının artırılmasının növbəti vəzifələri. (prof. A. Amosov)
6. Məktəbdə çətin uşaqlar və onlarla mübarizənin yolları. (F. İbrahimbəyov)
7. Savad təlimi. (V. Mustafazadə, Ə. Həsənov) (1, s.12-13)

Göründüyü kimi, institutun fəaliyyətə başladığı ilk illərdə onun tədqiqat problematikası o dövrün tələblərinə uyğun olaraq həm politexnik, əmək təhsili məsələlərinə, həm də fənlərin tədrisi, onların psixoloji xüsusiyyətlərinin öyrənilməsinə yönəlmişdir. Hətta zamanın vacib məsələsi kimi savad təliminin də metodik xüsusiyyətlərini tədqiq etmək zəruri hesab edilmişdir.

Məlum olduğu kimi, pedaqoji problemlərin xüsusiyyətlərini araşdıran peşəkar təhsil tədqiqatçılarının kifayət qədər olmaması da o dövrdə institutun elmi təşkilində və fəaliyyətlərin qurulmasında çətinliklər yaradırdı. Ona görə də rus, yəhudi və digər millətlərdən olan alimlərin instituta dəvət olunmasına, həm pedaqoji, psixoloji tədqiqatların aparılmasında, həm də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında onlara müraciət edilməsinə diqqət yetirilirdi.

**İnstitutun adındakı dəyişikliklər**

Məlum olduğu kimi, institut 1931-ci ilin iyulun 01-də Azərbaycan Elmi-Tədqiqat Pedalogiya İnstitutu adı ilə fəaliyyətə başlamış və onun adında dəfələrlə dəyişikliklər edilmişdir.

1931-ci ildən Azərbaycan Elmi–Tədqiqat Pedalogiya İnstitutu, 1932-ci ildən Azərbaycan Pedalogiya və Pedaqogika İnstitutu, 1933-cü ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1934-cü ildən Azərbaycan Pedalogiya və Pedaqogika İnstitutu, 1936-cı ildən V.İ. Lenin adına Azərbaycan Dövlət Elmi-Tədqiqat-Pedaqogika İnstitutu, 1938-ci ilin yanvarından Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1938-ci ilin iyunundan Azərbaycan SSR Maarif Nazirliyinin Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutu, 1946-cı ildən Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1951-ci ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1977-ci ildən Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu, 2000-ci ildən Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu və nəhayət, 2016-cı ildən Azərbaycan Respublikasının Təhsil İnstitutu adlandırılmışdır. Lakin institutun adında edilən bu cüzi dəyişikliklər mahiyyət etibarı ilə onun tədqiqatçılıq funksiyasını dəyişməmişdir. Ilk illər eksperimental pedaqogikanın nəticəsi kimi meydana çıxmış pedalogiya anlayışından istifadə olunmuş, 1936-cı ildən sonra bu elmə münasibətin dəyişməsi ilə bağlı ondan imtina edilmişdir. (2, s. 4-5)

Əslində institutun adında aparılan dəyişikliklər onun məzmun və struktur cəhətdən təkmilləşdirilməsi, daha optimal variantın axtarılması ilə bağlı olmuşdur ki, bu proses son dövrlərə qədər gəlib çatmışdır.

**Sistemli pedaqoji, psixoloji tədqiqatların başlanması**

Təhsil İnstitutunun yaranması əslində ölkəmizdə təhsilə, pedaqoji, psixoloji elmlərə yeni yanaşmanı ifadə edirdi. Artıq təhsil prosesinin daha səmərəli qurulması onun elmi–nəzəri əsaslarının tədqiq olunmasını, zaman-zaman özünü büruzə verən və aktuallıq kəsb edən məsələlərin planlaşdırılmasını, sistemli olaraq öyrənilməsini zəruri vəzifə kimi qarşıya qoyurdu. Bu isə, öz növbəsində, institusional bir yanaşma tələb edirdi ki, Təhsil İnstitutu da belə bir zərurətdən yaranmışdı. O, ilkin olaraq pedaqoji, psixoloji problemlərin sistemli şəkildə araşdırılması prosesini özündə ehtiva edirdi. Orada tədqiqatların istiqamətləri, problematikası, tematik çeşidlənməsi xüsusi tələblərə uyğun olaraq aparılır, tədqiqatçılıq təcrübəsində istifadə olunmaq üçün qruplaşdırılırdı. İllər keçməsinə baxmayaraq, bu yanaşma daha da təkmilləşməklə bu gün də davam etdirilir və instituta xas olan peşəkarlıq kimi dəyərləndirilir.

**Müxtəlif zamanların ehtiyacları və Təhsil İnstitutu**

Yarandığı gündən Təhsil İnstitutu özünün tədqiqatçılıq fəaliyyətini bir missiya olaraq yerinə yetirməyə başlamış, özünün inkişaf tarixində

təhsil tələbatlarına cavab verməyi bir kursa çevirmişdir. 30-cu illərdən sonra 40-50-ci illərdə vətənə məhəbbət, düşmənə nifrət ruhunda tərbiyə məsələləri ön plana çəkilmişdir. Təkcə humanitar deyil, təbiət, riyaziyyat fənlərinin də tərbiyə imkanları müharibədən sonrakı quruculuq illərində insanların əhvali-ruhiyyəsini yüksəltmək baxımından araşdırılmış, fənlərin məzmununa yeni materialların əlavə edilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.(2, s. 6)

50-60-cı illərdə məktəbin həyatla əlaqələndirilməsi məsələsi gündəmə gəldiyindən institutun fəaliyyət istiqamətlərində bu cəhət nəzərə alınmışdır. Həmin illərdə kənd məktəblərində istehsalat təliminin təşkili, şagird briqadalarının, istehsalat sexlərinin, tədris emalatxanalarının yaradılması, ictimai-faydalı, məhsuldar əməyin təşkili, politexnik təlim, peşəyönümü üzrə məktəblərə praktik köməyin göstərilməsi sahəsində tədqiqatlar üstünlük təşkil etmişdir. (2, s. 6-7) 70-80-ci illərdə orta ümumtəhsil məktəbinin işini yaxşılaşdırmaq məqsədi ilə tədbirlərin həyata keçirilməsi, şagirdlərə elmlərin əsaslarına dair möhkəm biliklərin verilməsi, politexnik təlimin gücləndirilməsi, gənclərin peşə seçməyə hazırlanması, təhsilin məzmununun elmin, texnikanın və mədəniyyətin inkişaf tələblərinə uyğunlaşdırılması, yüksək keyfiyyətli stabil dərsliklərin hazırlanması sahəsində araşdırılmalar aparılmışdır. (2, s. 7-8) Xüsusilə 70-ci illərdə elmi biliklər praktik əhəmiyyət nəzərə alınmadan dərsliklərə daxil edilmiş və bütün bunlar ümumtəhsil fənlərinin məzmununun ağırlaşması ilə nəticələnmişdir. Bununla əlaqədar olaraq institutda şagirdlərin yüklənməsinin qarşısının alınması, təlim yükünün azaldılması istiqamətində araşdırılmalar aparılmışdır.

90-cı illər ölkəmizin tarixində bir sıra hadisələrlə əlamətdar olmuşdur. 1991-ci il oktyabr ayının 18-də ölkəmizdə ikinci dəfə Dövlət Müstəqilliyi əldə olunduqdan sonra yeni bir cəmiyyət yarandı. Müxtəlif sahələrdə olduğu kimi, təhsildə də islahatların aparılması zərurəti meydana çıxdı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın inkişafını sürətləndirdi. Təhsildə də islahatlar həyata keçirildi. 1999-cu il 15 iyun tarixli, 168 nömrəli Fərmanla "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" təsdiq edildi. Bu proqramla Azərbaycanda həyata keçiriləcək təhsil islahatlarının konkret addımları müəyyənləşdirildi. Həmin addımlar isə 2000-ci ildən sonrakı dövrü əhatə edirdi. (2, s. 8-9)

Azərbaycan Respublikası Prezidenti 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 349 nömrəli Fərman imzaladı. Bu Fərmanla 1931-ci ildən fəaliyyət göstərən Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu və Respublika Elmi-Metodik Mərkəzin bazasında yeni elmi təhsil müəssisəsi – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu yaradıldı. Əvvəllər üç (Elmi-tədqiqat, Analitik-informasiya, Təşkilati-metodik), sonralar isə dörd (Nəzəri tədqiqatlar mərkəzi, Kurikulum mərkəzi, Tətbiqi tədqiqatlar, monitorinq və qiymətləndirmə mərkəzi, Texniki peşə təhsili mərkəzi) bölmədən ibarət bir elmi institut kimi fəaliyyət göstərdi. (2, s. 14) Bu dövrdə institutun fəaliyyəti, demək olar ki, bütövlükdə təhsil islahatından irəli gələn vəzifələrin həyata keçirilməsinə yönəldildi. Bu fəaliyyətləri başlıca olaraq dörd istiqamətdə qruplaşdırmaq olar: təhsil tədqiqatlarının aparılması, yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması, müxtəlif aspektli təhsil fəaliyyətlərinin və əldə olunan nəticələrin ekspertizası, müəllim kadrlarının peşəkarlığının artırılması.

Bu istiqamətlərdə görülən işlər beynəlxalq məsləhətçilik fəaliyyətinin dəstəyi ilə həyata keçirilirdi. Azərbaycanda nəticəyönlü təhsil sisteminin qurulması üzrə işlər aparılırdı. İslahat Proqramına uyğun olaraq təhsilin bütün pillə və səviyyələri üzrə həm normativ-hüquqi bazanın yaradılması (1999), həm öyrədici-innovasiya mərhələsinin təşkili (2000-2003), həm də yeni standart və kurikulumların hazırlanması (2003-cü və ondan sonrakı illər) üzrə tədbirlərin reallaşdırılması nəzərdə tutulurdu.(3, səh.119-188) Ilk dəfə olaraq, Azərbaycan Respublikasında dərslik konsepsiyası (4, s.29-36), Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin Dövlət Standartı (Milli Kurikulumu) (5), I-IV siniflər və eləcə də V-XI siniflərin standart və kurikulumları (6, s. 7), ümumi təhsil şagirdlərinin qiymətləndirilməsi konsepsiyası (8), eləcə də ayrı-ayrı fənlər üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemləri və s. yaradıldı. Həmçinin pedaqoji texnologiyalara dair araşdırmalar aparılaraq onun nəticələri müəllimlər üçün vəsait kimi nəşr olundu (9).

Ümumtəhsil fənlərinin tədrisi, təlim prosesində İK-dən istifadə, fənn kurikulumlarının tədrisi vəziyyətinin öyrənilməsi, təlim prosesinin idarə olunması, monitorinq və qiymətləndirmənin məzmunu və təşkili, istedadlı şagirdlərin aşkara çıxarılması və inkişaf etdirilməsi, on iki illik təhsilin problemləri, ilkin peşə təhsilində modul tipli texnologiyalardan istifadə olunmaqla kurikulumların hazırlanması kimi məsələlər tədqiqata cəlb olundu. Eyni zamanda orta ixtisas təhsilinin məzmununun təkmilləşdirilməsi, müasir maliyyə sisteminin yaradılması, idarəetmə və planlaşdırma bacarıqlarının gücləndirilməsi, marketinq sisteminin formalaşdırılması, ali təhsildə məzmun islahatlarının aparılması və kredit sisteminə keçilməsi, təhsilin keyfiyyətinin idarə edilməsi, həmçinin təhsilin yeni məzmunu, təşkili və s. problemlər tədqiqata cəlb olundu.

2013-cü ildə "Azərbaycan Respublikasında ümumi təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunması (10) ölkəmizdə həyata keçirilən təhsil islahatlarının davam etdirilməsi ilə bağlı yeni perspektivlər müəyyənləşdirdi. Səriştə əsaslı yeni təhsil məzmunun yaradılması, yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması, təhsildə yeni idarəetmə sisteminin qurulması, müasir tələblərə cavab verən təhsil infrastrukturunun, yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması strateji istiqamətlər kimi konkretləşdirildi. İnstitut öz fəaliyyətlərini tamamilə bu istiqamətlərə uyğun olaraq planlaşdırdı. Bu gün də həmin yanaşma davam etməkdədir.

**Azərbaycanda ilk kütləvi eksperimental pedaqoji tədqiqatlar**

İnstitutun kütləvi eksperimentlərin təşkili və keçirilməsi sahəsində gördüyü işlər özünün unikallığı ilə seçilməklə yanaşı, həm də Azərbaycan təhsilinin, eləcə də pedaqoji elmin tarixində ilk hadisə idi. Bu həm də ötən əsrin 60-cı illərindən etibarən keçmiş SSRİ ərazisindəki təhsil sistemində, xüsusi olaraq, diqqət mərkəzində dayanırdı. Belə ki, 60-cı illərin sonu və 70-ci illərin əvvəllərindən azsaylı xalqların uşaqlarının məktəbə hazırlanması institutun pedaqoji problemləri sırasında xüsusi yer tuturdu. Odur ki, həmin dövrdə uşaq bağçalarının məktəbə hazırlıq qruplarında və məktəbdə təşkil olunmuş qruplarda altıyaşlıların I sinfə hazırlanması üçün proqramlar və metodik göstərişlər hazırlandı (2, s.76-77).

Altıyaşlıların təlimi xüsusi aktuallıq kəsb etdiyindən onun miqyası genişlənməyə başladı. Beləliklə, institutda başqa bir problem - azərbaycanlı (doğma dili Azərbaycan dili olan) uşaqların məktəb təliminə hazırlanması üzrə 20 məktəbdə eksperimental tədqiqata başlanıldı. İnstitutda hazırlanan proqram və dərs vəsaitləri onun daha elmi əsasda aparılmasına və coğrafiyasının genişlənməsinə imkan yaratdı. 1977-1978-ci dərs ilindən eksperimentlər kütləvi xarakter aldı. Bu məsələyə həsr olunmuş "Uşaqların məktəbə hazırlanması" adlı ilk kitab 1977-ci ildə çapdan çıxdı. SSRİ Maarif Nazirliyi və SSRİ Pedaqoji Elmlər Akademiyasının rəhbərliyi həmin işləri yüksək qiymətləndirdi. İnstitutun təşəbbüsü ilə uşaqların məktəbə hazırlanmasına həsr olunmuş növbəti Ümumittifaq Konfransının Bakıda keçirilməsi məqsədəmüvafiq hesab edildi. Konfrans 1978-ci ilin fevral ayında Bakıda təşkil olundu.

1977-1978-ci dərs ilində institut SSRİ Təlimin Məzmunu və Metodları Elmi-Tədqiqat İnstitutu, Uşaq və Yeniyetmələrin Fiziologiyası Elmi-Tədqiqat İnstitutu ilə birlikdə 6 məktəbin hazırlıq siniflərində kompleks eksperimentə başladı. Üç il ərzində davam edən bu eksperiment hazırlıq sinfi nəticələrinin təkmilləşdirilməsi üçün zəngin material verdi (11, s.38-182).

Artıq 1977-1978-ci dərs ilindən respublikanın 10 məktəbinin hər birində altıyaşlılardan ibarət bir sinif təşkil olundu. Həmin siniflərdə tədris prosesi yeddiyaşlılardan ibarət I siniflər üçün proqram və dərsliklər əsasında aparıldı. Sonrakı dərs ilində siniflərin sayı 20-yə çatdırıldı. Bu tədqiqatın nəticələri də altıyaşlıların təlim imkanlarını və onun əsasında altı yaşdan təlimə başlayan ibtidai məktəblərdə təlimin məzmununu və metodlarını dəqiq müəyyənləşdirməyə şərait yaratdı. Beləliklə, tədqiqat geniş vüsət aldı. Yeddi yaşdan təlimlə yanaşı, altı yaşdan təlim də paralel aparıldı. 80-ci illərin axırında I sinfə 90 minədək altıyaşlı cəlb olundu. Eksperimentin uğurlu nəticələri nəzərə alınaraq 1991-1992-ci tədris ilindən Azərbaycanda kütləvi şəkildə altı yaşdan təlimə başlaması barədə qərar qəbul olundu (11, s. 187-375).

Beşgünlük iş həftəsinə keçilməsi də institut tərəfindən ciddi eksperimental tədqiqata cəlb edilmişdir. Respublikanın 40 məktəbində hazırlıq siniflərinin və 10 uşaq bağçasında məktəbə hazırlıq qrupunun beşgünlük iş həftəsi üzrə fəa-

liyyət göstərməsinin pedaqoji-metodik təminatına xüsusi fikir verilmiş, müvafiq proqramlar və müəllimlər, tərbiyəçilər üçün zəruri metodik materiallar hazırlanmışdır. 1982-1984-cü illərdə institutun fəaliyyətində beşgünlük iş həftəsinə keçilməsinin real imkanlarının öyrənilməsi, I-III siniflər üçün proqram və dərsliklərin təkmilləşdirilməsi, təbiətşünaslıq və əmək təlimi üzrə tədris komplektinin hazırlanması, ibtidai siniflərdə uşaqların tərbiyəsinə kompleks yanaşmanın praktik həlli yollarının müəyyənləşdirilməsi və s. kimi məsələlər mühüm əhəmiyyət daşımışdır (2, s.70).

Şagirdlərin təlim müvəffəqiyyətinin 9 balla qiymətləndirilməsinin sınaqdan keçirilməsi də kütləvi eksperimentlərlə bağlı institutun keçirdiyi tədbirlər silsiləsinə daxildir. Təhsil Nazirliyinin müvafiq göstərişlərinə əsasən aparılan bu araşdırma sosial ehtiyaclardan irəli gələn bir tədqiqat işi kimi yerinə yetirilmişdir. İnstitutda 9 bal sistemi ilə bütün fənlər üzrə qiymətləndirmə normaları hazırlanmış, əvvəl iki rayonda, daha sonra əlavə olaraq dörd şəhər və rayonda eksperimental araşdırmalar aparılmışdır (12). Bu tədqiqat işi yekunlaşdırılmasa da, ümumiyyətlə, nəticələr şagird nailiyyətlərinin qiymətləndirilməsində çoxballılığın tətbiqinin onun effektinin artırılmasına müsbət təsirini aydın şəkildə göstərmişdir. Bunun nəticəsi olaraq ölkədə təlim nailiyyətlərinin qiymətləndirilməsində 100, 700 ballı qiymətləndirmələrdən istifadə olunmasına başlanılmışdır. Bu, Azərbaycan təhsilinin beynəlxalq qiymətləndirmə sistemlərinə yaxınlaşmasına təsir göstərməklə onu sürətləndirmiş, həm də pedaqoji elmlər sistemində təhsilalanların qiymətləndirilməsi mexanizmlərinin zənginləşdirilməsinə töhfə vermişdir.

Həmçinin kütləvi eksperimentlərin təşkili sahəsində də institutda aparılan işlərin ilkin olması Azərbaycanda pedaqoji-psixoloji elmlərin tədqiqat metodlarının mükəmməlliyinə təsir göstərmiş, onun milli kontekstdə praktik nümunələrlə əsaslandırılmasına imkan yaratmışdır.

**Funksiyaların genişlənməsi, məsuliyyətin artması**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 noyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Azərbaycan Respublikasının Təhsil İnstitutu kimi adlandırılmışdır. Pedaqoji Kadrların İxtisasının Artırılması İnstitutu, Respublika Pedaqoji Kitabxanası və İstedadlılar Mərkəzi ona birləşdirilməklə institut yenidən qurulmuşdur. Müasir Azərbaycanın təhsilində günbəgün yeniləşən və inkişaf edən prosesləri qarşılamaq üçün aşağıdakı istiqamətlər müəyyənləşdirilmişdir:

*təhsilin nəzəri və təcrübi məsələləri ilə bağlı, o cümlədən, təhsil siyasəti üzrə prioritetlərin müəyyənləşdirilməsi və strateji tədqiqatların planlaşdırılması;

*təhsil müəssisələrində keyfiyyət göstəricilərinin artırılması, o cümlədən təhsil imkanlarının genişləndirilməsi və təhsilalanlar üçün bərabər imkanların yaradılması;

*elmi-pedaqoji tədqiqatlar və elmi-pedaqoji kadr hazırlığı;

*müxtəlif təhsil pillələri üzrə təhsilin məzmun və qiymətləndirmə standartlarının, nümunəvi (variativ) kurikulumların və təhsilin keyfiyyət standartlarının hazırlanması;

*müxtəlif təhsil müəssisələrində təhsilin inklüzivliyi, psixoloji xidmətin təşkil edilməsi, istedadlı uşaqlarla işin düzgün qurulması (o cümlədən olimpiadalara hazırlıq) və tədris resurslarından istifadə sahəsində metodik tövsiyələrin hazırlanması;

*elektron təhsilin inkişafı və elektron məzmunun yaradılması;

*milli və beynəlxalq qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsi;

*təhsilin normativ-hüquqi bazasına aid sənədlərin hazırlanması;

*təhsilin bütün pillə və səviyyələri ilə bağlı pedaqoji savadlılığı həyata keçirmək məqsədilə nəşriyyat, çap (metodik vəsait, metodik tövsiyə və s.) və maarifləndirmə (konfrans, seminar, dəyirmi masa, müzakirə, təlim kursları və s.) işlərinin aparılması.

Bütün bu istiqamətlər institutun funksiyalarının genişlənməsinə, bununla bərabər, Azərbaycan təhsili qarşısında onun vəzifələrinin çoxalmasına dəlalət edir. Hazırkı dövrdə institutun mərkəzləri (Elmi-pedaqoji tədqiqatlar mərkəzi, Təhsil işçilərinin peşəkar inkişafı mərkəzi, Metodik dəstək mərkəzi, Təhsil işçilərinin sertifikatlaşdırma mərkəzi, Təhsil texnologiyaları mərkəzi), eləcə də ayrı-ayrı metodik xarakterli struktur şöbələr yuxarıda qeyd olunan istiqamətlərdə fəaliyyət göstərir.

Elmi-pedaqoji tədqiqatlar mərkəzində təhsilin nəzəriyyəsi və tarixi, təhsilin iqtisadiyyatı və idarə olunması, təlimin nəzəriyyəsi və metodikası, psixologiya və xüsusi təhsil məsələlərinin nəzəri və praktik məsələləri araşdırılır. Təhsil işçilərinin peşəkar inkişafı mərkəzində əlavə təhsilin məzmunu və təşkili, müəllimliyə qəbul prosesinin tənzimlənməsi, Təhsil işçilərinin sertifikatlaşdırılması mərkəzində təhsil işçilərinin qiymətləndirilməsi və onlara sertifikatların verilməsi, Metodik dəstək mərkəzində isə metodik xidmət və əlaqələndirmə üzrə işlər aparılır. Özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərən Təhsil texnologiyaları mərkəzi isə təhsilin ən müasir məsələləri ilə bağlı layihəəsaslı tədqiqatları təşkil etməklə Azərbaycanda nəzəri və praktik cəhətdən əhəmiyyət daşıyan innovasiyaları sınaqdan keçirir. Metodik xarakterli struktur şöbələrdə məktəbəqədər təhsilin inkişafı, proqramlar, dərslik və dərs vəsaitləri, Milli və Beynəlxalq qiymətləndirmənin təşkili və aparılması, təhsildə innovasiyalar, keyfiyyətin təminatı, istedadlı uşaqlarla iş, ömür boyu təhsil üzrə Milli Kvalifikasiyanın reallaşdırılması, peşə təhsilinin inkişafı kimi məsələlərə aid praktik əhəmiyyət daşıyan tətbiqi araşdırılmalar aparılır.

**Müasirlik müstəvisində hədəflərə doğru**

Təhsil İnstitutunun bu gün diqqəti cəlb edən çoxşaxəli fəaliyyətində başlıca məqsədi humanist, humanitar, demokratik prinsiplər əsasında qurulan Azərbaycan təhsilinə dəstək vermək, onu ən yeni innovasiyalarla zənginləşdirməklə müasir cəmiyyətin ehtiyac və tələbatlarına uyğunlaşdırmaqdan ibarətdir. Son illərdə "Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunma məsələləri" (2016), "Standart və kurikulumlar: nəzəri və praktik məsələlər" (2016), "Müasir təhsilə innovativ yanaşmalar" (2016), "İstedadlı uşaqlarla təlimin təşkili və məzmunu" (2016), "Ümumi təhsil fənlərinin tədrisi məsələləri" (2016), "Məktəbəqədər təhsil müəssisələrində inteqrativ və inkişafetdirici təlim məsələləri" (2017), "Ümumtəhsil məktəblərinin idarə edilməsinin modernləşdirilməsi" (2017), "Şagird nailiyyətlərinin qiymətləndirilməsi texnologiyaları" (2017), "Ümumi təhsildə şagird nailiyyətlərinin formativ qiymətləndirilməsi" (2018), "Fənn kurikulumlarının tətbiqi məsələləri" (2018), "Təhsilin idarə edilməsinə yeni yanaşmalar" (2018), "Ümumtəhsil fənləri üzrə təlim strategiyaları və qiymətləndirmə vasitələri" (2019), "Təhsilin idarə olunmasında dəyərlər" (2019), "Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla korreksiya işinin təşkili" (2019), "Təhsilin keyfiyyətinin yüksəldilməsinin aktual məsələləri" (2019) və s. mövzularda nəzəri və praktik xarakterli tədqiqatlar aparılmış və nəticələr çap olunmuşdur. Bu dövrdə həmçinin layihəəsaslı araşdırmalara xüsusi diqqət yetirilmişdir. "Məktəbəqədər və ibtidai sinif müəllimləri üçün ixtisasartırma təlim modullarının hazırlanması", "Alternativ tədris proqramlarının təbliği", "Ailələrin maarifləndirilməsi yolu ilə 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi", "Refleksiv müəllim", "Dünyanın ən böyük dərsi"və s. layihələr uğurla başa çatdırılmışdır. Eləcə də "STEAM Azərbaycan", "İcmaəsaslı məktəbəqədər təhsil", "Zərdabi-ibtidai sinif şagirdlərinin oxu bacarıqlarının inkişafı", 5 yaşlı uşaqlar üçün məktəbəhazırlıq qruplarının təşkili layihələri həyata keçirilir.

2021-ci il fevralın 02-də təsdiq olunmuş "Azərbaycan 2030: sosial inkişafa dair Milli Prioritetlər"də dünyada artan rəqabətə davam gətirmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafının müasir və güclü təsirə arxalanmasının vacibliyi, yalnız bu yolla insan kapitalının inkişaf etdirilməsinin zəruriliyi qeyd edilir. Bunun üçün "ömürboyu təhsil"ə xüsusi önəm vermək, erkən və məktəbəqədər təhsilin əhatə dairəsini genişləndirmək, ümumi təhsili gücləndirmək, gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaqla keyfiyyətli təhsil almaq imkanlarını genişləndirmək, kadr hazırlığını əmək bazarının tələblərinə uyğunlaşdırmaq və ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə rəqabətədavamlılığını təmin etməklə XXI əsrin tələblərinə uyğun olaraq təhsilin inkişaf etdirilməsi nəzərdə tutulur.

İnstitut dövlətimizin təhsil sahəsində müəyyən etdiyi bu prioritetləri özünün fəaliyyətində ciddi konseptual yanaşmalar kimi qəbul edir. Son struktur dəyişiklikləri aparıldıqdan sonra başladığı genişmiqyaslı tədqiqata əsaslanan dəstəkləyici, inkişafyönümlü, maarifləndirici xarakterdə olan fəaliyyətlərini davam etdirir. Təhsil İnstitutu məzmun islahatlarını dərinləşdirmək, beynəlxalq qiymətləndirmə tədqiqatlarında daha yaxşı nəticələrə nail olmaq, erkən və məktəbəqədər təhsilin əhatə dairəsini genişləndirmək,

rəqəmsal texnologiyalara və yeni bacarıqlara yiyələnmək, peşə və "ömürboyu təhsil"də əməkdaşlığa nail olmaq və ali təhsildə rəqabətliliyi təmin etmək istiqamətlərində tədbirlər həyata keçirməyi Azərbaycan 2030 Milli Prioritetlərlə bağlı hədəflər kimi müəyyənləşdirib. Bu gün böyük tarixi yol keçmiş Təhsil İnstitutu müasirlik müstəvisində həmin hədəflərə doğru özünün fəaliyyətini uğurla davam etdirir.

**Problemin aktuallığı.** Təhsil İnstitutunun tarixi bu gün həm pedaqoji tədqiqatların tematikasını müqayisəli olaraq müəyyən etmək, həm də tədqiqatçılıq təcrübəsini öyrənərək ondan yararlanmaq baxımından faydalıdır.

**Problemin yeniliyi.** Təhsil İnstitutunun fəaliyyət tarixinin xronoloji ardıcıllıqla öyrənilməsi müasir zamanda təhsil salnaməsinin pedaqoji elmlərlə bağlı yeni səhifələrinin yaradılması ilə nəticələnir.

**Problemin praktik əhəmiyyəti.** Təhsil İnstitutunun 90 illik fəaliyyətinin öyrənilməsi təhsilşünaslığın, xüsusilə də pedaqoji fikir tarixinin zənginləşdirilməsi baxımından əhəmiyyət daşıyır.

**Ədəbiyyat:**


1. Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (1931-1981). -Bakı: Maarif, 1982. -166 s.
2. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu-80. -Bakı: Kövsər, -2011. -310 s.
3. Mərdanov, M. Azərbaycanın təhsil siyasəti (1998-2004). I kitab / M. Mərdanov, F. Şahbazlı. -Bakı: Caşıoğlu. -2005.
4. Mərdanov, M. Azərbaycanın təhsil siyasəti (1998-2005). II kitab / M. Mərdanov, F. Şahbazlı. -Bakı: Təhsil. -2005.
5. Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu. -Bakı, 2006.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" // -Bakı: Kurikulum. -2008. -№ 1.

6. Ümumtəhsil məktəblərinin I-IV siniflər üçün fənn kurikulumları, -Bakı: Təhsil, -2008.
7. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). -Bakı: Mütərcim, -2012.
8. *http://www.e-qanun.az › fram...9 - "Azərbaycan Respublikasının ümumi təhsil sistemində .*
9. Mehrabov, A. Pedaqoji texnologiyalar. / A. Mehrabov, Ə. Abbasov, Z. Zeynalov, R. Həsənoм. -Bakı: Mütərcim, -2006.
10. *www.president.az/articles/9779 Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*
11. Kərimov, Y.Ş. Seçilmiş əsərləri. IV cild / Y.Ş. Kərimov. -Bakı: Təhsil, -2008.
12. Şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi normaları (prof . Y. Ş. Kərimovun redaktorluğu ilə) .-Bakı, 2002.
13. *https://president.az Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*
14. Əzizov, Rüfət. Bacarıqlara əsaslanan təhsilə keçmək əsas prioritetdir // -Bakı: "Azərbaycan müəllimi". 2021, 02 aprel.


**E-mail:** e.abbasov@arti.edu.az

**Redaksiyaya daxil olub:** 08.06.2021